yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur






2 EŞŞƏK ARABASI VƏ FAYTON VƏ YA "XURCUN VƏ ÇAMADAN"

3 MERKELİN QAFQAZ SƏFƏRİ

4 KEÇİB GEDƏN QURBANIN HƏYATIMIZDA BURAXDIĞI İZ

5 AZƏRBAYCAN MƏKTƏBLƏRİNDƏ KADR ÇATIŞMAMAZLIĞI

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

31 AVQUST 2018-Cİ İL
№013 (72)

## BAŞ NAZİR YEDDİ REGİONDA YENİ QUBERNATORLAR TƏYİN EDİB



Gürcüstanın baş naziri Mamuka Baxtadze yeddi regionda yeni qubernatorlar təyin edib. M. Baxtadze Mtsxeta-Mtianetidə qubernator vəzifəsinə Şalva Kereselidzeni, Kvemo Kartli qubernatoru olaraq Şota Rexviaşvilini, Samtsxe-Cavaxeti qubernatoru olaraq isə Besik Amiranaşvilini təyin edib. Şida Kartli qubernatoru Giorgi Xocevanişvili, Sameqrelo-Zemo Svaneti qubernatoru Aleksandre Modzerelia, Quriya qubernatoru isə Zurab Nasaraiya olub. İmeretinin qubernatoru Şavleqo Tabatadze olacaq.

Baş nazir yeni qubernatorları Hökumət Administrasiyasında təqdim edib.

## ZURAB PATARADZE GÜRCÜSTANIN AZƏRBAYCANA YENİ SƏFİRİ TƏYİN OLUNUB



Gürcüstan prezidenti Giorgi Marqvelaşvilinin fərmanına əsasən, Zurab Pataradze Gürcüstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri vəzifəsinə təyin edilib. Bu barədə prezidentin mətbuat xidməti məlumat yayıb.

Qeyd edək ki, Zurab Pataradze 2016-cı ilin iyulundan 2018-ci ilin iyuluna qədər Acarıstan Muxtar Respublikasının hökumət başçısı vəzifəsini tutub və 2018-ci ilin iyulun 4-də istefa verib. Bundan əvvəl Z. Pataradze Gürcüstanın Qazaxıstanda səfiri olub.

## SENTYABRIN 1-DƏN TÜTÜN MƏHSULLARININ AÇIQ SATIŞINI HƏYATA KEÇİRƏNLƏR CƏRİMƏLƏNƏCƏKLƏR

Sentyabrın 1-dən tütün məhsullarının, tütün aksesuarı və ya tütündən istifadə üçün nəzərdə tutulmuş qurğuların vitrinə, piştaxtaya, rəfə çıxarılması və ya başqa şəkildə satışı 2000 lari dəyərində cərimələyə səbəb olacaq. Qeyd olunan hərəkət təkrar olunduğu halda isə 4000 lari dəyərində cərimə tətbiq olunacaq.

"Tütün haqqında qanunda" mərhələli şəkildə bir neçə tənzimləmə yenə nəzərdə tutulub. Konkret olaraq İnzibati Xətalar Məcəlləsinin 155-ci maddəsinə əsasən tütün məhsulunun və ya tütün aksesuarının satışı, müvafiq obyektdən onun nəqliyyat vasitəsində oturan şəxsə verilməsi 2000 lari dəyərində cəriməyə səbəb olacaq. Həmin maddənin 15-ci hissəsi ilə nəzərdə tutulmuş hərəkət təkrar olunarsa 4000 lari dəyərində cəriməyə səbəb olacaq. Qeyd olunan sanksiyalar 2021-ci ildən qüvvəyə minəcək.

Xatırladaq ki, Gürcüstanda tütündən istifadəyə dair məhdudiyyətlər və qayda pozuntuları üçün nəzərdə tutulmuş cərimələr 2018-ci ilin 1 mayından qüvvəyə minib. Qanuna əsasən, tütün çəkmək yaşayış binalarında, ictimai məkanlarda, ictimai nəqliyyatda və stadionda qadağan edilib.

## MAMUKA BAXTADZE AZƏRBAYCANDA RƏSMİ SƏFƏRDƏ OLUB



"Gürcüstan və Azərbaycan strateji tərəfdaşdırlar və bu, çox böyük nailiyyətdir". Bunu Gürcüstanın baş naziri Mamuka Baxtadze Bakıda Azərbaycan prezidenti İlham Əliyevlə görüşündə deyib.

Azərbaycanda səfərdə olmaqdan məmnunluğunu bildirən M. Baxtadze "Gürcüstan Dəmir Yolları" Səhmdar Cəmiyyətinin sədri kimi dəfələrlə Bakıda olduğunu xatırladıb, Bakıda gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat hissi oyatdığını deyib və bunu Azərbaycanın böyük iqtisadi tərəqqisinin göstəricisi kimi qiymətləndirib.

Baxtadze iki ölkə arasında münasibətlərin sürətlə inkişaf etdiyini vurğulayıb: "Gürcüstan və Azərbaycan strateji tərəfdaşdırlar və bu, çox böyük nailiyyətdir. Bizim üçün xalqlar arasında münasibətlər çox önəmlidir. Bizim üçün, eyni zamanda, mehriban qonşuluq, dost və qardaşlıq əlaqələri çox vacibdir. Bizim əcdadlarımız əlaqələrimizin təməlini çox gözəl qoyublar və bu əlaqələr bunun əsasında artıq sürətlə inkişaf edir. Bizim birlikdə həyata keçirdiyimiz regional layihələr beynəlxalq əməkdaşlıq və region üçün həqiqətən çox faydalıdır. Bizim regional əməkdaşlıq çərçivəsində nəqliyyat, energetika və digər sahələrdə böyük uğurlarımız var. Əlbəttə, potensialımız böyükdür və ümid edirəm ki, ikitərəfli əlaqələr nəticəsində və ikitərəfli layihələr həyata keçirməklə bu potensialı biz daha da yaxşı inkişaf etdirə bilərik".

O əlavə edib ki, iki ölkə arasında ticarət dövriyyəsi daha da artmaqdadır: "Bu il bu, ola bilsin milyard dollara çatsın, lakin bizim potensialımızın tam istifadəsi demək deyil, daha çox potensialımız mövcuddur. Əminəm ki, ikitərəfli əməkdaşlıq nəticəsində gələn iki il ərzində biz bunu 50-60 faizə qədər artıra bilərik. Sevindirici haldır ki, eyni zamanda, digər sahələrdə, o cümlədən mədəniyyət, incəsənət, idman sahələrində də əməkdaşlığımız səmərəlidir. Sevindirici haldır ki, Azərbaycan turistləri və investorlar Gürcüstanda özlərini çox rahat hiss edirlər. Əminəm ki, biz birgə səylərimiz nəticəsində daha çox böyük məqsədlərimizə nail ola bilərik. Səmimi qəbulunuz üçün təşəkkür edirəm".

## BAŞ NAZİR MAMUKA BAXTADZE MÜSƏLMANLARI QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ TƏBRİK EDİB



Avqustun 21-i Gürcüstanın baş naziri Mamuka Baxtadze Tbilisi Cümə məscidində toplaşmış müsəlmanları Qurban bayramı münasibətilə təbrik edib.

Baş nazir ölkə və dünya müsəlmanlarını müqəddəs bayram münasibəti ilə təbrik edərək onlara bolluq və firavanlıq, sağlam həyat, sülh və əmin-amanlıq arzulayıb. M. Baxtadze məscidə toplaşan müsəlmanlar qarşısında çıxış edərək deyib: "Qurban bayramı birlik, dostluq və sülh şəraitində yaşamaq üçün rəmzlərlə dolu bir bayramdır. Bu bayram kimsəsizlərə, imkansızlara, ehtiyacı olanlara yardım bayramıdır. Bu gün əziz bayramı həmvətənlərimlə birgə qeyd etdiyimə görə çox şadam.

Əsrlər boyu Gürcüstanda bütün dinlər və etnik qruplar birgə güclü bir dövlət qurdular. Tarixdə olduğu kimi, bu gün də keçmişin davamçıları olan yeni nəsil də əl-ələ verərək ölkənin inkişafına öz töhfələrini verməkdədirlər". O, bütün Gürcüstanın müsəlman idarəsinə aktiv şəkildə ölkənin ictimai həyatına qoşulmasına görə təşəkkür edib.

Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze isə öz çıxışı zamanı bayramın əhəmiyyətindən danışıb. Onun sözlərinə görə, Gürcüstanda mövcud olan İslam modeli unikaldır və müasir dünya üçün bir nümunədir.



# EŞŞƏK ARABASI VƏ FAYTON VƏ YA "XURCUN VƏ ÇAMADAN"

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Sentyabr başlayır və tətil vaxtı sona çatır. Halbuki bizlər üçün nə tətil, nə istirahət var. İşimizdən dolayı təbii. Mətbuat işi belədir yəni. İşim haqqında giley-güzar etmək fikrində deyiləm, demək istədiyim başqa zaddır.

Sentyabrda iş yerlərinin tətil vaxtının bitməsi, məktəblərin, universitetlərin açılması ilə yenə günlərimiz dayanacaqlarda, yol kənarlarında və marşrutkalarda keçəcək. Həyatımda bundan cansıxıcı və yorucu əməl tanımıram. Saatlarla soyuqda, istidə, yağışda, qarda, kəsib-doğrayan küləyin qarşısında yollarda marşrutka gözləmək və mənzil başına çatana kimi marşrutkalardakı darısqallıqdan, havasızlıqdan, səs-küydən, "Ar daidardo" (Dərd eləmə) radiosundakı danqadaranq musiqilərin səsinin yaratdığı başağrısından dərd eləmək bir yana, adam az qalır dəli ola. Vallah bu eşşək arabasına oxşayan, oturacaqları qırıq, sökük, hər tramplində adamın içalatını qopardan, çirkli şüşələrindən gedəcəyin yer görünməyən, toz-torpaqlı marşrutkalarla nəinki Avropaya, heç Kutaisiyə gedib çıxmaq olmaz.

Günə məhz bu ovqatla başlamalı olursan, evə qayıdanda da hamı ilə dalaşmaq istəyirsən. Hələ marşrutka sürücülərinin siqaret püfüllədə-püfüllədə öz kefləri ilə avtomobili idarə etmələri (Halbuki ictimai nəqliyyatda siqaret çəkmək qanunla qadağan olunub. Ümumiyyətlə, Gürcüstanda qanunlar kağıza yazılıb, qovluğa qoyulmaq üçündür deyəsən), 40 dəqiqəlik yolu 80 dəqiqəyə gedib çıxmaları (bütün bu başağrılarına 40 dəqiqə artıq dözməli olursan) adamı lap özündən çıxarır. Və niyəsə bütün bunlar Qardabani-Tbilisi marşrutkalarında baş verir. Məsələn, Rustavi-Tbilisi və ya Marneuli-Tbilisi marşrutkalarında bu cür hallara rast gəlməmişəm. Rast gəldiyim olsa-olsa "Ar daidardo" radiosunun çaxır, dğemali, lavaş qoxulu musiqiləri olub. Amma mənzil başına vaxtında çatıblar və oturacaqların sayından çox adam götürməyiblər. Qardabani marşrutkalarında isə oturanların sayı qədər də ayaq üstə duranlar olur. Etiraz edəndə də ki, yer yoxdu, belimdəmi oturacaq, deyirlər ki, onlar da sənin kimi adamdı, yolda qoyası deyiləm ki. Əlbəttə, sərnişinlərdə də günah var. Boş oturacaq yoxdursa minməməlidirlər.

Bir də sürücülərin sərnişinlərlə kobud davranışları var. Sərnişinlərlə elə davranırlar elə bil bunların marşrutka şoferi olmalarında günahkar sərnişinlərdir. Ən pisi də bu marşrutkalarda milli və sosial əlamətə görə diskriminasiya hallarının baş verməsidir. Dəfələrlə məhz milli və sosial əlamətinə görə sürücülərin sərnişinləri yolda qoymalarının, kobud davranışlarının şahidi olmuşam. Nə isə... uzatmaq istəmirəm. Yaxşı olardı ki, marşrutkalara dövlət tərəfindən nəzarət olunsun və bu halların baş verməməsi üçün tədbirlər görülsün. Hər dəfə bu cür hallarla qarşılaşanda isə böyük Mirzə Cəlilin "Xurcun və çamadan" hekayəsi yadıma düşür. Burda həmin hekayəni olduğu kimi paylaşım, siz də nəticə çıxarın, əziz oxucu.

***"Xurcun və çamadan"***

***Bir gün var idi, bir gün yox idi. Bir xurcunla bir çamadan var idi. Xurcun çox köhnə və cındır idi, çamadan çox təzə və qiymətli idi.***

***Bunlar bir gün bəhs elədilər ki, indiki zəhmətkeş əsrində bunların hansının hörməti artıqdı?***

***Əlbəttə, xurcun özünə çox arxayın idi; çünki əlbəttə ki, indiki zəhmətkeş əsrində həmişə kəndlinin çiynində olan xurcun şəhərlilərin yaraşıqlı hesab olunan çamadanından hörmətli gərək nəzərə gələ.***

***Bəli, belə ittifaq düşdü ki, bunların ikisinə də dəmir yolda balaca düşərgahların birində vaqona minmək lazım gəldi.***

***Elə ki, maşın dayandı, xurcun bir yandan və çamadan da bir yandan vaqonların qabağına qaçdılar. Vaqon naziri çamadanı görən kimi fori vaqonun qapısını açdı və çamadana dedi: "buyur" və hətta çamadana əl uzadıb onu qalxızdı vaqona.***

***Amma xurcun qaldı yerdə yalvara-yalvara.***

***– Mestov net.***

***– Yer yoxdur.***

***– Değ çika.***

***– Arari, arari. Katso, arari.***

***Bu yazdığım bir balaca hekayədir ki, onu oxuyan bilər ki, mən nə deyirəm. Mən onu deyirəm ki, bir paraları lap yalandan öz adlarını yoldaş qoyub, yalandan hər rast gələnə "yoldaş" deyirlər.***

***Həqiqi yoldaşlıq odur ki, yeri düşəndə heç kəsə təfavüt qoymasın: nə cındır xurcuna, nə də qiymətli çamadana. Hələ bu sənə peşkeş. Ona nə deyirsən ki, hələ sənin vəzifən xurcunu çamadandan qabağa salmaqdır.***

***Xülasə, bu bir hekayədir ki, indiki yaylaq ərzində bunu oxumaq dəmiryolçularımıza çox vacibdir.***

# ALMANİYANIN FEDERAL KANSLERİ GÜRCÜSTANDA OLUB




Avqustun 23-də Almaniya kansleri Angela Merkel Gürcüstana səfəri zamanı baş tutan mətbuat konfransında söhbətə işğal mövzusu ilə başlayıb və 10 il bundan əvvəl necə "ciddi" şəkildə Rusiyanı ordusunu çıxarmağa çağırdığını xatırlayıb. Angela Merkel xüsusi olaraq qeyd edib ki, bu gün də Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyir: "Bu konfliktin həlli üçün nə edə biləriksə edəcəyik".

Kansler işğal mövzusunda söhbətini davam etdirib və mövcud olan vəziyyəti "ədalətsizlik" adlandırıb:

"Rusiya prezidenti mənim mövqeyimi bilir. Həmçinin Ukrayna ilə bağlı biz bu haqda danışırıq, mən onunla söhbət edirəm. Bu bir kontekstdir".

Angela Merkel bildirib ki, böyük cəhdə baxmayaraq birdəfəlik "böyük ədalətsizliyin" keçmişdə qalması üçün çox az iş görülür. Kanslerin sözlərinə görə, Gürcüstanın işğal altında olan ərazilərindəki vəziyyət gündəlik hala çevrilməməlidir və bu vəziyyətə heç kim uyğunlaşmamalıdır: "Biz bu haqda maksimum dərəcədə danışmalıyıq".

Çıxışının başlanğıcında Almaniya kansleri dəmiryolu sahəsində iqtisadi əməkdaşlıq kimi mövzulara da toxunub. Merkelin sözlərinə görə, səfər zamanı iki müqavilə imzalanıb və təqribən 199 milyon avro dəyərində yatırım qaz ehtiyatı, su təchizatı və kanalizasiya sistemləri üçün ayrılacaq.

"Kiçik və orta biznes arasında münasibətin olması vacibdir. İqtisadiyyat nazirləri tez-tez görüşməlidirlər. İqtisadiyyata cavabdeh olan şəxslər də tez-tez görüşməlidir ki, bizim iqtisadi əlaqələr davamlı olsun və təcrübəmizi bölüşək. Gürcüstan öz aqrar məhsullarını Avropa Birliyinin bazarına da çıxara bilər", - deyə Merkel bildirib.

Kansler qeyd edib ki, Gürcüstan Şərq Tərəfdaşlığı kontekstində vacib rol oynayır: "Assosiasiya sazişi, azad ticarət sazişi, ikitərəfli münasibətlərin gücləndirilməsi, genişləndirilməsi, hələ ki, biz mövcud olan vasitələrin genişləndirilməsi üzərində çalışırıq. Mənim səfərim iqtisadi münasibətlərin dərinləşdirilməsinə dəstək olur".

Merkel viza liberalizasiyasının nəticələrini də qiymətləndirib və bildirib ki, belə tez müddətdə Almaniyaya Gürcüstandan sığınacaq axtarmaq üçün çox adam gedib. Onun sözlərinə görə, bu göstərici tezliklə də azalıb: "Gürcüstanın baş naziri bir daha qeyd etdi ki, belə şəxslərin sayı daha da azalacaq".

Kansler öz bəyanatında Frankfurt kitab bazarında Gürcüstanın xüsusi qonaq olacağını da qeyd edib. "Çox maraqlanırıq ki, orada Gürcüstanın təqdimatı necə olacaq", - deyə Angela Merkel bildirib.

# İLİN SONUNDAN SÜRÜCÜLÜK VƏSİQƏSİ ALMAQ ÇƏTİNLƏŞƏCƏK



Sürücülük vəsiqəsinin praktik imtahanı tezliklə imtahan meydançasından real sahəyə – küçəyə keçiriləcək. Gələcək sürücülər ilin sonundan sürücülük bacarığını iki mərhələdə göstərəcək. İlk əvvəl imtahanı bağlı meydançada verəcəklər və bundan sonra Rustavi şəhərində xüsusi olaraq ayrılmış küçəyə keçəcəklər. Başqa detallarla bağlı hələ ki, qanunvericilik çalışmaları gedir. Gürcüstan DİN-in Xidmət Agentliyindən bildiriblər ki, ilin sonuna məsələlərin hamısı həll olunacaq və sürücülük vəsiqəsi almaq üçün imtahanların yeni standartlara uyğun olaraq verilməsi artıq təxirə düşməyəcək.

Xatırladaq ki, DİN bu təşəbbüs üzərində keçən il çalışmağa başlayıb və qeyd olunduğuna görə 2018-ci ilin ilk mərhələsində yeni qayda icra olunmalı idi. Ancaq ilin sonuna qədər təxirə düşdü.

"Sürücülük vəsiqəsi almaq istəyənlər praktiki imtahanı 2018-ci ilin sonundan yeni standartlara uyğun verməli olacaqlar. Praktiki imtahanı real məkanda vermək ilk əvvəl 10 şəhərdə mümkün olacaq: Rustavi, Qori, Telavi, Axaltsixe, Kutaisi, Saçxere, Ozurgeti və Batumi. İlk mərhələdə Poti və Zuqdidi xidmət mərkəzləri istisna olacaq. Bu şəhərlərdə suvarma arxları sisteminin və küçələrin qurulması işlərinin həyata keçirilməsinə görə imtahan vermək mümkün olmayacaq.

Rustavidə imtahan ərazisi olaraq bir neçə küçə seçilib, bələdiyyəyə bu haqda məlumat artıq verilib və çalışmalar gedir. Ancaq hələ konret qeyd edilməyəcək", – deyə DİN-in Xidmət Agentliyinin direktor müavini İmeda Makasaraşvili bildirib. O, qeyd edib ki, təhlükəsizlik standartlarının qorunması məqsədi ilə imtahan ilk əvvəl qapalı məkanda keçiriləcək və sonra küçədə davam edəcək.

"Bu layihə mövcud sistemin qorunmasını nəzərdə tutur – istəyi olan hamı qapalı meydançada imtahan verəcək ki, yüksək təhlükəsizlik standartları qorunub saxlanılsın və hazırlıqsız namizədlər küçəyə çıxmasın. Biz ilk növbədə qapalı məkanda yoxlayacağıq ki, vətəndaş nə dərəcədə avtomobil idarə edə bilir. Əgər hesab etsək ki, o, şəhərdə imtahan verə bilər, icazə verəcəyik və vətəndaş şəhər şəraitində imtahan verəcək", – bildirib İmeda Makasaraşvili.

# VƏTƏNDAŞLIQ HAQQINDA QANUNA DƏYİŞİKLİKLƏR EDİLİB

Vətəndaşlığını bərpa etmək üçün keçmiş Gürcüstan vətəndaşları 31 dekabr 2020-ci il tarixinə qədər Dövlət Xidmətlərinin İnkişafı Agentliyinə müraciət edə bilərlər.

"Vətəndaşlıq haqqında" qanuna dəyişikliklər qüvvəyə minib. Avqustun 15-dən etibarən keçmiş Gürcüstan vətəndaşları başqa ölkənin vətəndaşlığının alınması nəticəsində itirdikləri vətəndaşlığın bərpa edilməsi üçün Dövlət Xidmətlərinin İnkişafı Agentliyinə müraciət edə bilərlər.

Qanuna əsasən, vətəndaşlıq keçmiş Gürcüstan vətəndaşı bir neçə meyara cavab verdiyi halda bərpa ediləcək, o cümlədən: müəyyən olunmuş standartlar çərçivəsində gürcü dilini bilir, axtarışda deyil və ya onun barəsində ekstradisiya tədbirləri həyata keçirilimir və ölkədən çıxarılmırsa.

Bundan başqa, şəxsə vətəndaşlığın bərpası qaydasında Gürcüstan vətəndaşlığı verildiyi halda onun yetkinlik yaşına çatmayan övladına da vətəndaşlıq veriləcək.

## TÜRKİYƏNİN GÜRCÜSTANDAKI SƏFİRİ: "FETÖ" İLƏ MÜBARİZƏDƏ GÜRCÜ MÜƏSSİSƏLƏRİ İLƏ SIX ƏMƏKDAŞLIQ EDİRİK



""FETÖ" üzvlərinin Türkiyəyə yönəlmiş əməliyyatlarını Gürcüstandan həyata keçirmək istəyi var. İki ölkənin hüquq mühafizəçiləri arasında çox sıx əməkdaşlıq edilir", - deyə Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan bildirib.

Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan müsahibəsində qeyd edib ki, Gürcüstanda mövcud olan "FETÖ" (Fətullahçı Terror Örgütü) strukturunun maliyyəsi dayandırılıb, amma həmin təşkilatın üzvlərinin yenə də Türkiyə ilə bağlı əməliyyatları Gürcüstandan həyata keçirmək istəyi var. İki ölkənin hüquq mühafizə orqanları isə bir-biri ilə sıx əməkdaşlıq edirlər.

Səfir Ankarada baş tutan 10-cu ambasadorialda (səfirlərin görüşü) iştirak edib və Anadolu Agentliyinin müxbirinin Gürcüstanla iqtisadi münasibətləri, yatırım potensialı, Bakı-Tbilisi-Qars dəmiryolu, "FETÖ"ya qarşı mübarizə haqqında sualını cavablandırıb.

F. C. Yazqan iki qonşu və qardaş ölkənin – Türkiyə və Gürcüstanın bir növ Xəzər və Qara dəniz coğrafiyasında bir-birini tamamlayan iki körpü olduğunu vurğulayıb.

O, həmçinin Türkiyənin Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini diqqətə yetirib və Gürcüstanda olan xaricdən dəstək alan müəyyən qrupların öz ultra-millətçi çağırışları ilə bu münasibətlərin təxribatını yaratmaq istədiklərini qeyd edib.

Səfirin fikrincə, işlə təmin olunmaq istəyi olan gürcülər üçün ən əlverişli bazar Türkiyədir və türk biznesmenləri üçün Gürcüstan gəlirli yatırım ölkəsidir.

Xanım Yazqan Gürcüstanla ciddi iqtisadi əlaqələrin – infrastrukturdan-turizmə və energetikadan-ticarətə qədər müxtəlif sektorları əhatə etdiyini, iki ölkə arasında ticari dövriyyənin təqribən 1,6 milyard dollar təşkil etdiyini də bildirib.

O, həmçinin Gürcüstanın ən böyük ticarət tərəfdaşının Türkiyə olduğunu qeyd edərək bu bazarda qiymət və keyfiyyət arasında qarşılıqlı asılılığın əhəmiyyətindən danışıb.

### DİGƏR TİCARİ OYUNÇULARLA RƏQABƏT

"Türkiyə Gürcüstanın Avropa Birliyi və Çinlə bağladığı azad ticrət müqavilələrindən istifadə etməlidir və bu üstünlüklərdən yararlanmalıdır", - deyə səfir bildirib və qeyd edib ki, bu baxımdan Türkiyə regionun başqa ölkələri ilə rəqabətdədir.

Xanım Yazqan Azərbaycan, Gürcüstan və Türkiyə arasında üçtərəfli formatlara dəstək haqqında danışıb və yay mövsümündə gündə 80 min adamın giriş-çıxış etdiyi Sarp sərhəd-keçid məntəqəsi məsələsinə də toxunub və orada 2 il əvvəl başlanmış tikinti işlərinin hələ də başa çatmadığını deyib.

"Sarp sərhəd-keçid məntəqəsinin infrastrukturu yetərli deyil. Tikinti işləri tezliklə başa çatmalıdır və tez zamanda təhlükəsizlik və gömrük tənzimləmələrinin qüvvəyə minməsi başlamalıdır", - deyə F. C. Yazqan bildirib.

O, qeyd edib ki, iki ölkənin Şərqi Qara Dəniz kənarı və Şərqi Anadolu ətrafı regionları arasında sərhəd ticarətinin həvəsləndirilməsi vacibdir, turizm isə regionun bütün tərəfləri üçün əlverişli sahədir.

Xanım Yazqan Gürcüstanın yatırım potensialını, xüsusilə də kənd təsərrüfatı və heyvandarlıq sahələrini diqqətə yetirib.

"Əgər Türkiyə qonşu Gürcüstanın yatırım potensialından istifadə etməyəcəksə iqtisadiyyat qaydalarına əsasən bu qaydadan başqaları istifadə edəcəklər", - deyə səfir bildirib.

### BAKI-TBİLİSİ-QARS DƏMİRYOLU LAYİHƏSİ

Türkiyənin Gürcüstandakı səfiri hal-hazırda Bakı-Tbilisi-Qars dəmiryolu layihəsinin hansı mərhələdə olduğu haqda məlumat verib və bildirib ki, "gələcəkdə Ədirnə-Qars dəmiryolunun həyata keçirilməsindən sonra Çindən-Avropaya sürətli dəmiryolu gedişimiz olacaq".

"Bir neçə saata Tbilisidən Qarsa getmək turizm və yük daşınması, eləcə də biznes əlaqələri üçün möhtəşəmdir", - deyə səfir bildirib və gün ərzində Gürcüstandan keçərək Asiya ölkələrinə on minlərlə yük maşınının getdiyini xatırladıb.

Səfirin sözlərinə görə, dəmiryolu müxtəlif baxımdan vacib və yararlıdır, həmçinin Gürcüstanda yol infrastrukturunda mövcud olan problemlərin həllində də.

### "FETÖ" İLƏ MÜBARİZƏ

Fatma Ceren Yazqanın verdiyi məlumata əsasən, Türkiyə vətəndaşlarının Gürcüstana yalnız şəxsiyyət vəsiqəsi ilə gedərək 1 il müddətinə Gürcüstanda qalmaq hüququ var. Bu vəziyyətdən yararlanaraq Türkiyədə cinayət törədən və xəyanətkar "FETÖ"nun strukturu da istifadə edir.

""FETÖ" cəmiyyətə yanlış məlumat verməklə və səhv fikrin formalaşması ilə məqsədyönlü şəkildə münasibətlərin inkişafına mane olur", - deyir xanım səfir və əlavə edir ki, kriminal işlərə qoşulan şəxslər Türkiyənin imicini korlayırlar.

Səfir Türkiyə ilə Gürcüstan arasında olan ikitərəfli münasibətləri hədələyən şəxslərin diqqətsiz qoyulmamasını qeyd edərək vurğulayıb: "Təəssüf ki, "FETÖ" məsələsi ilə bağlı Gürcüstan hökumətindən bizim gözləntilərimiz hələ yerinə yetirilməyib və bu məsələ ilə bağlı ciddi addımların atılmasını istərdik".

Xanım Yazqan münasibətlərin bütün sahələrdə eyni davamlılıqla inkişaf etməməsi məsələsinə də toxunub. Məsələn, Gürcüstanda Maarif Fondu məktəblərinin açılışı prosesi də istənilən sürətlə getmir.

Səfir diqqətə yetirib ki, xüsusi olaraq "FETÖ"ya qarşı mübarizə məsələsində daha sürətli reaksiya məqsədi ilə Gürcüstan müəssisələri ilə danışıqlar gedir və bu baxımdan yerli strukturlarla formalaşmış davamlı əlaqələrə də toxunub.

O, deyib ki, qeyd olunan terror təşkilatının Gürcüstanda yenə də universitetləri var və ona Gürcüstan vətəndaşlığı almış axtarışda olan turist rəhbərlik edir.

Səfir terror təşkilatının maliyyələşməsi məsələsinə də toxunub. "Biz Türkiyə ilə bağlı olan maliyyə mənbəyini dayandırdıq. Bu dəfə haradan pul alırlar? "FETÖ"nun üzvlərinin yenə istəyi var ki, Türkiyə ilə bağlı olan əməliyyatları Gürcüstandan həyata keçirsinlər. Biz çalışırıq ki, bu suala cavab verək və bu istiqamətdə iki ölkənin hüquq mühafizə strukturları arasında sıx əməkdaşlıq var", - deyə F. C. Yazqan bildirib.

## MERKELİN QAFQAZ SƏFƏRİ



Sahib MUSTAFA
*sahib1975.sm@gmail.com*

Arxada buraxdığımız ayın yadda qalacaq mühüm hadisələrindən ən başlıcası yəqin ki, Almaniya federal kansleri Angela Merkelin Cənubi Qafqaz regionuna rəsmi səfəri olacaqdır. Almaniya hökumət başçısının səfərinin ana gündəmi iqtisadi motivlərlə bağlı olsa da siyası məna baxımından diqqətdən kənara qalmamalıdır. Odur ki, Merkelin səfərinin detalları və əhəmiyyətini bölgənin hər 3 dövləti üçün ayrı-ayrı kontekstdə müzakirə etmək olar.

Federal kanslerin Gürcüstandan başlayan səfərini iqtisadi nöqteyi-nəzərdən məhsuldar adlandırmaq olar. Berlin Gürcüstanı Avropa İttifaqı üçün layiqli və əhəmiyyətli tərəfdaş kimi görür. Almaniya ölkəmizi beynəlxalq arenada hər zaman dəstəkləmiş, onun Avropa ailəsinə inteqrasiya olunması və iqtisadi baxımdan inkişaf etməsində maraqlı olmuşdur. Ona görə də, alman hökuməti Gürcüstan iqtisadiyyatına 193 milyon avro sərmayə yatırmağa həvəslidir. Artıq bu barədə hökumətlərarası razılaşma imzalanmışdır. İnvestisiyanın 150 milyon avrosu Gürcüstanda qaz saxlama anbarının inşasına xərclənməsi planlaşdırılır.

Merkel Tbilisidən sonra İrəvana yollandı. Səfərin planı və gündəliyi Ermənistanın əvvəlki rəhbərliyi ilə razılaşdırıldığı üçün Almaniyanın baş nazirinin bu ölkəyə səfərini "tanışlıq" xarakteri adlandırmaq olar. Ermənistanın inqilabçı hökümət başçısı Paşinyan Brüssel səfəri zamanı Avropa ilə İrəvan arasında "məsafə"nin uzaqlığından giley-güzar etmiş və Köhnə Qitənin yoxsul Ermənistana yardımının kasad olmasına görə "göz yaşları" tökmüşdür. Ermənistanın Rusiyadan asılı və Moskvanın vassalı olduğunu Avropa yaxşı anlayır. Prespektivdə Avropa Ermənistana yüklü miqdarda sərmayə yatırmağa həvəssizdir. Almaniya ilə Ermənistan arasında ticari əlaqələr əmsalının 140 milyon dollar həcmində olması reallığı əks etdirir. Ona görə də Berlin və İrəvan arasında əldə olunan razılaşma yalnız informasiya texnologiyaları və təhsil sahələrini əhatə edəcəkdir. İndiki vəziyyətdə Paşinyanın əsas hədəfi Ermənistan barəsində Avropada yaranmış "vassal" sindromunu sındırmaq və xarici siyasətdə İrəvanın guya Qərbə meyilli orientasiya illüziyası yaratmaqdır. Lakin Paşinyan Ermənistanın "Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı" (KTMT) və "Avrasiya İqtisadi Birliyi"nin (AİB) üzv olduğunu Merkelə necə həzm etdirəcək? Bu anlamda çətin ki, Merkelin iştahası qabarıq ola. Həmçinin, erməni hökumət başçısı ölkədə hökm sürən iqtisadi kollaps vəziyyətini aradan qaldırmaqda bacarıqsız olduğunu pərdələmək üçün daxili publikadan etimad axtarışındadır.

Alman kanslerin Qafqaz turnesinin sonuncu dayanacağı Baki oldu. Əslində Merkelin Azərbaycana səfər planı bir növ qalmaqalla gözlənilirdi. Məhz Bakının mətin və qəti inadı ilə Dağlıq Qarabağa qeyri-qanuni səfər etmiş Bundestaq üzvü Albert Vayler alman nümayəndə heyətinin tərkibindən çıxarıldı. Merkel Azərbaycan səfərinin Vaylerdən daha vacib olduğunu vurğulayaraq onu Bakıya gətirmədi. Federal kanslerin Bakıya gəlişinin ana mövzusunu sırf enerji məsələləri təşkil etdi. Almaniya Azərbaycan qazının alınmasında çox maraqlıdır. TANAP qaz-boru xətti fəaliyyətə başladıqdan sonra Azərbaycan Almaniyanı yaxından cəzb etməkdədir.



## KEÇİB GEDƏN QURBANIN HƏYATIMIZDA BURAXDIĞI İZ

Hacı BƏKİROĞLU
*hacibakir@mail.ru*

Simvollarla dolu bir Qurban bayramını da geridə buraxdıq. Görəsən bu bayramın bizdə buraxdığı izi görə bildikmi? Qurbanlarımızı kəsərkən hansı təslimiyyətlə kəsdik? Həzrəti İbrahim kimi ən dəyərlimizi Allaha təqdim edə bildikmi? Həzrəti İsmail kimi Allaha təslim ola bildikmi? Habil kimi malımızın ən gözəl olanını Allaha təqdim edə bildikmi?

Önümüzdəki illərimizdə və həyatımızda "qurbanın" hansı simvolunu daşıyacağıq? Çünki İsmayılın qurban edilmə əmri Hz. İbrahimin ona düşkünlüyü və sevgisi səbəbiylədir. Hz. İbrahimin ona həddindən artıq sevgi bəsləməsi qurban edilmə əmrini ortaya çıxarmışdır.

Nə zaman ki Həzrəti İbrahim ilahi əmr üçün İsmayıldan imtina etdisə, o zaman İsmayıla qovuşmuşdur. İsmayıl canından keçdiyində atası İbrahimə qovuşmuşdur. Bu hadisə təslimiyyətin ən gözəl nümunələri olaraq bizlərə təqdim edilmişdir. Həzrəti Yaqub da Yusifdən ayrılıq səbəbi olan ona çox düşkünlüyünü anladıqdan sonra və Uca Mövladan əfv istəyincə ona qovuşmuşdur… Biz müsəlmanlar da bizimlə Rəbbimizin arasına girəcək sevgi və düşkünlüklərimizi fəda etmədikcə arzuladığımız hədəflərimizə çata bilmərik. Nə zaman ki könlümüzün İsmayıllarını və Yusiflərini fəda etsək ilahi köməyə və arzuladığımız zəfərlərə çata bilərik.

Bizə təqdim edilən bu simvollar Rəbbimiz tərəfindən bütün insanlığa təqdim edilmişdir. Çünki bayramda qurban kəsmək paylaşmanın, yaxınlaşmanın və xatırlatmanın simvoludur. Adıyla da bəlli olduğu kimi "Qurban" "qurbiyət", yəni "Allaha yaxınlaşma" olaraq qiymətləndirilmişdir. Bu yaxınlaşma fədakarlıq istəyir, sevgi istəyir, əmək istəyir. Bu yaxınlaşma canan üçün can verməyi istəyir. İbrahim olmağı, İsmayıl olmağı, Həcər olmağı istəyir. Digər tərəfdən, bu yaxınlaşma üçün Yusif kimi quyulara, sürgünlərə razı olmağı, Yaqub kimi sevgisini ürəyinə basdırmağı istəyir. Uca Mövla bütün bunları "fenafillah olmaq" üçün istəyir.

Bu gün İslam aləminə baxdığımızda görünən mənzərə qarşısında çaşmamaq mümkün deyil. Ümmət olmamızı xatırladan, bir olmamızı öyrədən bayramda da İslam aləminə qarşı törədilən qətliamlar dinmədi. Bayramların bizə öyrətdiyi birliyi, bərabərliyi qavraya bilmədik. Zülmə qarşı bir olmağı öyrənmədik. Amma ətrafımızdakı bütün mənfiliklərə baxmayaraq İbrahimi və İsmayılı bir təslimiyyətlə Qurban bayramımızı idrak etdik. Mənə dünyamızda bir iz buraxacaq olan Qurban bayramını geridə buraxdıq. Bu idrakı həyatımızın əsasına yükləyərək yola davam etməliyik. Və bu izi bütün mənliyimizlə daşımağa davam etməliyik.

Bu bayramda da ehtiyac sahiblərinin üzünü bir zərrə də olsa güldürə bildiksə, onların könüllərini xoş edə bildiksə, demək ki, bu qurban əsl bayram olmuşdur. Çünki Qurban soyuduculara ət yığmaq bayramı yox, ehtiyac sahibi olan bacı və qardaşlarımızla paylaşmaq bayramıdır.

Nəticə olaraq hansı şərtlər altında olursa olsun yenə də bayram pessimistlik yerinə optimizmi, ümidsizlik yerinə ümidləri yenidən yaşıllaşdırar. İsmayıllarımızı qurban edərkən yenidən doğulmağı, iz tapmağı, yol tapmağı öyrədər… Eynilə əfəndimiz kimi ən çətin dövrlərdə belə bayramı bayramın ruhuna görə dərk etməyi tələb edir. Və onun təmsilini haqqıyla daşımağı, həyatımızda iz buraxmağı tələb edir.

Əsl bayram edənlərin bayramları bir daha mübarək olsun!

## GÜRCÜSTANDA YERALTI QAZ ANBARININ TİKİNTİSİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ ÜÇÜN MÜQAVİLƏ BAĞLANIB

"Gürcüstan Neft və Qaz Korporasiyası" və Almaniyanın Yenidənqurma Kredit Bankı (KFW) arasında "Samqorinin Cənub yatağında yeraltı qaz anbarının qurulması haqqında" müqavilə bağlanıb.

İqtisadiyyat Nazirliyindən bildiriblər ki, imzalama mərasimi Almaniya kansleri Angela Merkelin Gürcüstanda səfəri çərçivəsində baş tutub. Mərasimdə iqtisadiyyat və davamlı inkişaf nazirinin müavinləri Giorgi Çerkezişvili və Nino Enukidze, həmçinin Almaniyanın İqtisadiyyat və Energetika Nazirliyinin parlament katibi Tomas Barais iştirak edib.

Müqaviləni "Gürcüstan Neft və Qaz Korporasiyası"nın prezidenti David Tvalabeişvili və Almaniya Yenidənqurma Kredit Bankının Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya Departamentinin rəhbəri Olaf Tsimelka imzalayıb.

Müqavilə yeraltı qaz anbarı layihəsi üçün 150 milyon avro dəyərində maliyyə ayrılmasını nəzərdə tutur.



Yeraltı qaz anbarının tikilməsi ilə Gürcüstanın energetika təhlükəsizliyi artacaq. Layihə ölkəyə qazın verilməsi və istifadəsi arasında olan mövsümi disbalansın tənzimlənməsini və qış dövründə pik istifadəni təmin edəcək.

"Gürcüstan Neft və Qaz Korporasiyası" qaz anbarının tikinti işlərinə 2019-cu ildə başlayacaq və layihənin başa çatması 2020-ci ilə planlaşdırılır.

## TBİLİSİDƏ RUSİYA VİZA MƏRKƏZİ FƏALİYYƏTƏ BAŞLAYACAQ

Rusiyanın "İzvestiya" qəzetinin məlumatına görə, avqustun 17-dən Tbilisidə Rusiya Viza Mərkəzi fəaliyyətə başlayır, burada Gürcüstan vətəndaşları və vətəndaşlığı olmayan şəxslər RF-yə getmək üçün lazımi sənədləri daha tez düzəldə və viza ala biləcəklər.




Məlumatı İsveçrə səfirliyi nədzində Rusiya maraqları seksiyasında təsdiqləyiblər. Qeyd edək ki, Gürcüstanla Rusiya arasında diplomatik münasibətlərin olmaması səbəbindən məhz İsveçrə səfirliyi nədzində seksiya viza düzəltməklə məşğuldur.

Rusiya Viza Mərkəzi Tbilisidə, 4 saylı Besiki ünvanında yerləşən biznes mərkəzinin binasında açılacaq.

Viza Mərkəzinin açılması o deməkdir ki, Rusiya Gürcüstan vətəndaşları üçün viza rejiminin ləğvini planlaşdırmır, amma vizaların verilməsinin asanlaşdırılmasını istəyir. Bununla yanaşı, mərkəzin açılışı vizaların verilməsi ilə bağlı fırıldaqçılıq risklərini azaldacaq.

Vətəndaşlar sənədlərini Viza Mərkəzinə verə bilər, bundan sonra onlar İsveçrə səfirliyi nədzində Rusiya maraqları seksiyasına göndəriləcək və burada vizanın verilməsi ilə bağlı yekun qərar qəbul ediləcək.

Gürcüstanın baş nazirinin Rusiya ilə əlaqələr üzrə xüsusi nümayəndəsi Zurab Abaşidze ümid edir ki, Tbilisidə Rusiya Viza Mərkəzinin açılışı viza və konsul xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılmasına gətirib çıxaracaq.

"Bütün təfərrüatları bilmirəm. Ümimilikdə deyə bilərəm ki, çətinliklər aydın idi. Mən bizim və başqa ölkələrin vətəndaşlarının konsul xidmətləri aldığı İsveçrə səfirliyi nədzində Rusiya maraqları seksiyasını nəzərdə tuturam. Ümid edirəm ki, yeni viza mərkəzi bu problemləri həll edə və vətəndaşlara viza və konsul xidmətlərinin keyfiyyətini yaxşılaşdıra biləcək", - deyə Z. Abaşidze bildirib.

Gürcüstan hakimiyyəti ümumilikdə Tbilisidə yeni Rusiya Viza Mərkəzinin açılışını pozitiv qiymətləndirir. Bu haqda Gürcüstanın baş naziri Mamuka Baxtadze brifinqdə deyib.

"Təbii ki, bu, bu gün Gürcüstanda mövcud olan qanunvericilik çərçivələrində olmalıdır və bu, belədir. Əlbəttə ki, bu, vətəndaşlarımıza əlavə rahatlıq yaratsa, biz bunu ancaq alqışlaya bilərik", - M. Baxtadze jurnalistlərin suallarını cavablandırarkən deyib.

## İLLİK KREDİTİN EFFEKTLİ FAİZİ AZALIR - MÜDDƏTİ KEÇMİŞ KREDİTLƏRƏ DAİR CƏRİMƏLƏRİN MİQDARI DƏYİŞİR

1 sentyabrdan illik kreditin effektli faiz hissəsi 100%-dən 50%-ə kimi azalır. Mülki Məcəlləyə əsasən, "tərəflərin razılığı ilə kredit üçün faizin müəyyən edilməsi zamanı kreditin illik effektli faiz hissəsi 50%-dən çox olmamalıdır".




"İpoteka ilə təmin olunan kredit müqaviləsində qeyd olunmuş, tərəflərin razılığı ilə nəzərdə tutulmuş aylıq faiz hissəsi kreditdən istifadə ilə bağlı xərclər də (notarial qayda ilə təsdiqlənmiş ipotekadan və ipotekanın qeydiyyatı ilə bağlı xərclərdən başqa) daxil olmaqla hər ilin 1 mart tarixindən qüvvədə olan Gürcüstan Milli Bankının rəsmi veb-səhifəsində hər ay yayımlanan kommersial banklar tərəfindən verilmiş kreditlərin bazar dəyərinin on ikidə birindən çox olmamalıdır", – deyilir məcəllədə.

Beləliklə, müddəti keçmiş kreditlərə dair cərimələrin miqdarı da dəyişir. Konkret olaraq kredit müqaviləsinin hər hansı şərtinin pozulmasına görə kredit götürənlər üçün müqavilə ilə nəzərdə tutulmuş/öhdəlik qoyulmuş cəzanın və hər hansı formada maddi sanksiyanın miqdarı hər günə kreditin qalan əsas məbləğinin 0,27 faizindən çox olmamalıdır. Müvafiq olaraq sanksiyanın dəyəri illik 98,55%-dən çox olmamalıdır.

Mülki Məcəllənin qüvvədə olan nəşrinə əsasən, kredit götürən üçün hər günə öhdəlik qoyulmuş cəza və hər hansı formada olan maddi sanksiyanın dəyəri ümumilikdə müqavilə ilə nəzərdə tutulmuş kreditin qalığı əsas məbləğin illik 150%-dən çox olmur.

# AZƏRBAYCAN MƏKTƏBLƏRİNDƏ KADR ÇATIŞMAMAZLIĞI

**Məktəblərdə kadr çatışmamazlığı bu gün hamımızı narahat edən ən əsas məsələlərdən biridir.**

Bü gün riyaziyyat, fizika, kimya, Azərbaycan dili və ədəbiyyatı və s. fənləri Azərbaycan dilində tədris edən kadrların əksəriyyəti yaşlı insanlardır (Allah ömür versin onlara!). Cavan kadrlar azlıq təşkil etsələr də, aralarında bəzi qeyri-peşəkarlar da var (öz işinin peşəkarı olan gənclərimizi inkar etmirik). Bəzən yaşlı kadrlara "Sovet dönəminin qalıqları" kimi baxıb onların əziyyətini ayaq altına atırlar. Ancaq unutmaq lazım deyil ki, məhz həmin "Sovetin qalıqları" adlandırdığınız müəllimlər 90-cı illərdə aylarla maaş almadıqlarına baxmayaraq (Bəli, acı reallıq budur: aldıqları bir aylıq maaşa bir çörək almaq mümkün idi) məktəbdə təhsil-tədris prosesini dayandırmamışdılar, bütün çətinliklərə baxmayaraq fədakarcasına elin-obanın çətin günlərində övladlarımızın təhsil almasına çalışmışlar, məktəbdən ayrılmamışdılar. Bu gün gənc və yaşlı kadrlar birgə, müştərək işləyib təcrübələrini bir-birilə bölüşməlidir.

Bu gün Azərbaycan dilində fənləri tədris edən peşəkar kadrlara çox böyük ehtiyac var. Hər kəs ilk növbədə öz ANA dilini mükəmməl bilməlidir. Gürcü məktəblərində təhsil almaq ANA dilinin ölməsinə, gələcəkdə isə bir millət kimi yox olmağa, gürcüləşməyə gətirib çıxaracaq. Cəlil Məmmədquluzadənin "Anamın kitabı" pyesindəki tragikomik vəziyyət təəssüf ki, bu gün də cəmiyyətdə bir reallıq olaraq qalır.

Təəssüf ki, bəzi valideynlər övladlarını bilərəkdən gürcü məktəblərinə qoyurlar və düşünürlər ki, belə olan halda gələcəkdə onların iş tapması daha asan olacaq. Ancaq düşünmürlər ki, Gürcüstanda işsizlik səviyyəsi çox yüksəkdir, gürcülər özləri belə iş tapmaqda çətinlik çəkirlər (gürcü dili gürcülərin ana dili olmasına baxmayaraq). Valideynlər düşünmürlər ki, Azərbaycan məktəblərini bitirənlərin çox üstünlükləri var, Azərbaycan, türk, gürcü (17 il gürcü dilini Azərbaycan məktəbində öyrənmək üçün kifayət deyilmi??), ingilis, rus dillərini çox da əziyyət çəkmədən bilmiş olacaqlar. Valideynlər düşünmürlər ki, bu gün Gürcüstana ən çox investisiya edən şirkətlərin əksəriyyəti türk və Azərbaycan şirkətləridir və həmin şirkətlərdə əsas tələblərdən biri də Azərbaycan və türk dillərində səlis, qrammatik, səhvsiz yazıb və danışmaq əsas şərtlərdən biridir. Valideynlər düşünmürlər ki, gürcü dili 3.5 mln. əhalinin dövlət dilidir (bu əhalinin də 500 mini azərbaycanlılardır), Gürcüstandan kənarda bu dil heç kimə lazım deyil. Sual olunur əziz valideynlər: Övladlarınız nəyə görə yalnız işsizlik səviyyəsi yüksək olan Gürcüstan daxilində iş axtarmalıdır (?), axı beynəlxalq təcrübə qazanmaq imkanı Azərbaycan məktəbini bitirənlərdə daha üstündür.

Azərbaycan məktəblərində kadr çatışmamazlığını həll etməyin yeganə yolu Gürcüstanda tez bir zamanda Azərbaycan pedaqoji universitetinin əsasının qoyulmasına nail olmaqdır (əlbəttə ki, belə bir universitetdə Azərbaycan dilində digər fənləri mənimsəməklə yanaşı gürcü dilinin öyrənilməsi də nəzərdə tutulmalıdır). Bu yalnız Azərbaycan dövlətinin dəstəyi ilə baş tuta bilər. Təklif olunan variantlardan biri kimi Gürcüstanda hansısa bir universitetin nəzdində balaca bir bölüm və ya departamentin yaradılmasıdır, ancaq bu effektiv nəticə verməyəcək. Digər təklif olunan variantlardan biri tələbələrin Qazax və ya Bakıda təhsil alıb Gürcüstana qayıtmasıdır, hansı ki, bu da lazımı nəticəni verməyəcək. Çünki həmin tələbələr 4-6 il Gürcüstandan uzaqda olmaqla gürcü dilində bildiklərini də unudacaqlar. Gürcüstanda əsası qoyulmuş Azərbaycan pedaqoji universitetində isə tələbələr 4 il ərzində ixtisas fənləri Azərbaycan dilində öyrənməklə yanaşı, gürcü dilini də öyrənəcəklər. Tələbələri Azərbaycana göndərmək əvəzinə, Azərbaycandan müəllimləri Gürcüstana dərs deməyə dəvət etmək daha məqsədəuyğun olardı.

Gürcüstanda yaşayan azərbaycanlılar çoxluq təşkil edən ən böyük etnik azlıq hesab edilir. Etnik azlıq kimi ANA dilində həm orta məktəbdə, həm də ali məktəbdə təhsil almağa hər cür haqqımız və hüquqmuz çatır desək yanılmarıq.

Gəlin beynəlxalq təcrübəyə baxaq, bu gün İsveçrədə 4 RƏSMİ dil işlədilir, mətkəblərdə tədris dili bölgədə hansı dilin üstünlük təşkil etməsindən asılı olaraq həmin dildədir, əlbəttə digər rəsmi dillər də paralel olaraq öyrənilir. Bir neçə rəsmi dili olan başqa ölkələri də misal gətirmək olar: Belçika (3 rəsmi dil), Kanada, Hindistan, Belarusiya, Finlandiya və s. Ölkədə üstünlük təşkil edən milli azlıq kimi (bu bölgənin aborigen əhalisi kimi) düşünürəm ki, bizim də ANA dilimiz Gürcüstanda rəsmi dil kimi qəbul edilməlidir və buna nail olmaq üçün var-qüvvəmizlə çalışmalıyıq (bizim millətin vəkilləri ilə birlikdə). ANA dilinin rəsmi dil kimi qəbul edilməsi gürcü dilini öyrənməmək anlamına gəlmir, yenə də 17 il ərzində ana dili ilə yanaşı gürcü dilinin də öyrənilməsi davam edəcək.



**İlbəil Gürcüstanda Azərbaycan məktəblərinin sayı azalmaqdadır, ANA dili ölmək üzrədir, kadr çatışmamazlığı ilə əlaqədar bu problem 5-6 ilə daha kəskin şəkildə hiss olunacaq. Gələcək fəsadlardan yayınmaq üçün indidən həyacan təbilini çalmaq və hərəkətə keçmək mütləqdir.**

**Aygül İsayeva**
***İqtisadiyyat üzrə fəlsəfə doktoru***

# PEDAQOQLARA NƏ ZAMAN VƏ HANSI FORMADA BAŞ MÜƏLLİM STATUSU VERİLƏCƏK

*"Müəllimlərin hazırlığı üçün 60 kreditlik proqramın məzunları universitetdən məktəbə həmin proqramı bitirdikləri haqqında arayış və ya sertifikat təqdim etməlidirlər. Məktəb bu məlumatı Müəllimlərin Peşəkar İnkişaf Mərkəzinə çatdıracaq və mərkəz məzun üçün baş müəllim statusunun verilməsinə qərar verəcək" – Bu haqda Müəllimlərin Peşəkar İnkişaf Mərkəzinin və "Karyera üzrə tərəqqi sxeminə dəstək" altproqramının kənar müşahidəsi üzrə meneceri Kristine İnqoroğva danışıb.*

*Məlum olduğu kimi, müəllimlər üçün hazırlığın 60 kreditlik proqram məzunları məktəbdə çalışana qədər baş müəllim statusu almırlar.*

**– Müəllimlərin hazırlandığı 60 kreditlik proqramın məzunlarına nə zaman və necə baş müəllim statusu verilir?**

– Müəllimlərin hazırlandığı 60 kreditlik proqramın başa çatması halında belə olur: Əgər adam məktəbdə işlə təmin olunubsa və statusu yoxdursa, həmin 60 kreditlik proqramı bitirdiyini təsdiq edən arayışı və ya sertifikatı məktəbə aparmalı, həmin sənədi elektron təhsil qrafasına diplom yüklədikləri kimi yükləməlidirlər. Sonra məktəb bizə yazır ki, imtahanı vermiş, 60 kreditlik hazırlıq kursunu keçmiş müəllimi var və bizə həmin müəllimə status vermək üçün müraciət edir. Sonra müvafiq xidmət müzakirə edir və hansı fənn üzrə imtahan verib, həmin fənni tədris edir ya yox – bu kimi məsələləri nəzərə alaraq status verilir.

**– Müəllimlərin Peşəkar İnkişaf Mərkəzi məktəb tərəfindən göndərilmiş müəllimin 60 kredit toplaması haqqında məlumatı nə qədər vaxta müzakirə edəcək?**

– Ümumi olaraq 10 iş günü müddətində müzakirə olunur. Amma hər ayın 10-da Müəllimlər Evi status verməklə bağlı qərar verir. Hər şəkildə çalışırıq ki, müəllimin maaşı və əlavəsi itməsin. Rəsmi olaraq 10 iş günü müddətimiz var ki, ərizəni müzakirə edək.

**– Yəni indi kim məktəbdə çalışmağa başlayır və müəllimlərin 60 kreditlik hazırlıq proqramını keçibsə, onlar arayışı vaxtında məktəbə aparmalıdır ki, məktəblər məlumatı daha tez versin?**

– Əgər indi işləməyə başlayırlarsa, məktəb yeni pedaqoqun işə qəbul olunması halında müəllimlərin bir illik hazırlıq proqramını keçib, imtahanı veribsə müzakirə edirik və sərəncamla status veririk.

**– Statusun əlavəsi necə verilir? Bu əlavə nə qədərdir və saatla çalışmağa bağlıdırmı?**

– 320 lari baş müəllim üçün tam əlavədir. Pedaqoqun minimum 15 saatı olmalıdır ki, tam əlavəni alsın. Başqa halda əlavə proporsional olaraq bölünəcək. Xarici dillər olan halda, məsələn, müəllim məktəbdə 5 saat alman dili tədris edir və fiziki olaraq bu fəndə artıq saat yoxdursa – bu halda ona da tam əlavəni verirlər. Digər hallarda status fənn qrupuna da aiddir. Məsələn, əgər tarix imtahanını veribsə, amma tarix və coğafiyanı da tədris edirsə, iki fəndə ümumilikdə 15 saatı varsa ona da baş müəllim statusunun tam əlavəsi verilir.

**– Fənn üzrə imtahanı vermiş, indi isə peşəkar bacarıqlar imtahanında maneəni aşan, çalışan müəllimlərə baş müəllim statusu necə veriləcək?**

– Əgər fənn imtahanını 10 kreditə və bu il də 10 kreditə peşəkar bacarıqlar imtahanını veriblərsə, son nəticələr bizə gələnə qədər onlarda avtomatik əks olunur. Və ya əksinə, əgər bacarıqlar imtahanını əvvəl veriblərsə, indi isə fənn imtahanını veriblərsə və hərəsindən 10-10 kredit toplayıblarsa, bu da onlarda əks olunur. Yekun nəticələri İmtahanlar və Qiymətləndirmə Mərkəzi göndərəcək. Biz nəzərdən keçirib Təhsilin İdarəsi üzrə Məlumat Sisteminə göndərəcəyik. Müəllimlərin özünə imtahan verdikləri haqqında heç yerdən arayış almaq lazım deyil. 10 sentyabrdan əlavənin verilməsi də qaydaya düşməlidir ki, sentyabrın əlavəsini də alsınlar.

Gürcü dilindən tərcümə:
Aynurə ƏLİYEVA

# QARA GÜNÜN VƏRDİŞİ – ÇƏKMƏSİZ, YIRTIQ ƏLCƏKLƏ, 50 DƏQİQƏLİK FASİLƏ İLƏ 9 SAAT İŞLƏYƏN FƏHLƏ



*Əziz oxucular, mövzuya keçməmişdən əvvəl bir neçə nəsnəni qeyd edim. Bu yazı sizə dağınıq görünə bilər, çünki bəzi hissələri ayrıca geniş mövzu ola biləcək məsələlərə üzdən toxunur. Toxunur ona görə ki, bu mövzunu başqa mövzudan borc almadan əhatəli təsvir etmək müşkül görünür. İkinci qeyddə onu deyim ki, mövzuda istifadə olunacaq dialoq parçalarının ya iştirakçısı, ya şahidi olmuşam, ya da ki, danışdığının yalan olduğuna bir əsas görmədiyim insanlardan eşitmişəm. Bu giriş məsələnin ciddiliyini bütün varlığı ilə qəbul etməyiniz üçün yazılıb. Keçək mövzuya.*

Qardabaninin Aşağı Kəpənəkçi kəndindən sonra qaçqınlarla məskunlaşmış bir ərazi gəlir. Bura xalq arasında Sovet naziri məskəni kimi tanınır, qısaca və qulaq öyrəşən dildə desək “Sovet ministr”. Həmin bu “Sovet ministr” kimi tanınan ərazidə Sovet İttifaqı dövründə tikilmiş parniklər həminki vəziyyətdə olmasa da müəyyən formada bu gündə mövcuddur. Sovet İttifaqı dağıldıqdan sonra dövlət əmlakının özəlləşmə prosesi zamanı həmin bu parniklər də özəl mülkiyyətə keçdi. Parniklər mülkiyyətə keçən zaman Çanturiya soyadlı sabiq briqadir oranın özəl sahibi olacaq şəxsə bu sözləri deyibmiş: “Övlad, yadında saxla, parnik sahələrini yalnız azərbaycanlılara icarəyə ver, çünki onlardan başqa heç bir zümrə o torpaqdan baş çıxara bilməyəcək və sən icarə pulunu yığa bilməyəcəksən!”.

Bax bu ifadə xalqımızın zəhmətkeşliyinin haqq möhürüdür. Və bu xalqın zəhmətkeşlik statusunu digər etnik qrupların ən qatı milliyyətçisi belə, nifrət edəni belə dana bilməz. Nə də ki, heç kəs ümumi formada bu xalqa müftəxor deyə bilməz. Məsələnin burası belə, keçək digər hissəsinə.

GWP (Georgian Water end Power) su şirkəti bu ilin yanvar ayından 60 milyonluq sərmayə qoyaraq Qardabanidə çirkli suların təmizlənməsi zavodunu təmir edir. Tikinti-təmir işləri bitdikdən sonra zavod çirkli suları filtrasiya edib təmizləyərək təbiətə qaytarmaq imkanına malik olacaq. Məqsəd infrastrukturu və əhalinin güzəranını (ekoloji cəhətdən) Avropa standartlarına uyğunlaşdırmaqdır. Zavodun təkmilləşməsi isə məşhur Avstriya markalı brend tikinti şirkəti olan “Strabag”a həvalə edilib. O şirkətə ki, dünyanın yarıdan çoxunda (80 ölkədə) ciddi tikinti layihələrinin müəllifi və icraçısı kimi tanınır. Bu məlumat sizə lazımsız görünə bilər, ancaq mövzu küləyinin məsələni hansı səmtə apardığını hiss etdiyinizdə bu cür düşünməyəcəksiz.

Gələk özümüzə – həmin su tənzimləmə zavodunun tikinti-təmir prosesində icmamızın fəhlə işləyən yerli, sadə insanlarına. Gürcüstan Əmək Məcəlləsində əmək müqaviləsi ilə bağlı yazılıb ki, işlə təmin edən şəxs işi yerinə yetirən şəxsə – işçiyə qarşı insan haqlarına zidd hərəkət edə bilməz – insanların haqlarını pozan hərəkətlər (insan ləyaqətinin alçaldılması, diskriminasiya – ayrıseçkilik, irqinə, dininə, dərisinin rənginə, cinsinə, sosial təbəqəsinə, maddi vəziyyətinə görə). Şəxsən şahidi olduğum hadisələr – işçiyə təhlükəsizlik tədbirlərinin yerinə yetirilmədiyi zaman cərimələyəcəyini bildirən şirkətin sənə xüsusi iş çəkmələrini dava-qırğından sonra verməyindən tutmuş, hər tərəfi çirkab dolu zavodda iş əlcəklərini iki gündən bir verməsinə kimi.

Çəkmələrdən başlayaq. Xüsusi iş çəkmələri dəmir burunlu olur, işçinin ayağını zədələnmə riskindən qoruyur. Şirkətin boynuna götürdüyü işçi qanununa əsasən, bu ayaqqabılarsız işləmək qadağandır, amma işlədirlər, çünki tələb edən yoxdur. Və fəhləmiz həftədə bir ayaqqabı cırmağa razıdır, ancaq onun haqqı olan xüsusi çəkməni tələb etmir. Niyə? Bu sualın bir cavabı var: qara günün vərdişi. Əvvəl hər gün verilən əlcək iki gündən bir verilməyə başladı. Niyəmi? Çünki dünyanın bünövrəsi qoyulandan belə bir anlayış hökm sürür: “Nə qədər tələb edərsən bir o qədər qazanarsan, nə qədər susarsan bir o qədər itirərsən”. Çəkmə tələb etməyən fəhlə əlcəyinin iki gündən bir verilməsinə də susdu, artıq sıra digər şeylərə gəldi. Su. Hər tərəfin çirkab olduğuna görə su borularının dəyişdirilməsinə baxmayaraq, zavodda su kranından gələn suyu içmək o qədər də xoşa gələn deyil, insanın tamı çəkmir. Onlar özləri içdiyi – el arasında dükan suyu kimi tanıdığımız sudan fəhlələrə də verirdilər. Gözəl günün birində bizə kranı göstərərək dedilər: “Siz o sudan için, biz sizə su çatıra bilmirik, bunun hamısı hesabdır”, sonra “bizi başa düşün” kəlməsi ilə qılıqlayıb qara gün vərdişimizi işə saldılar. Sonra 9 saatlıq iş günündə saat 13:00 ilə 14:00 arası 1 saatlıq fasiləni çox görməyə başladılar. İş rəhbəri barmağını saata və iş görülən səmtə tutaraq dedi: “Saat 2-də orada olmalısınız, burada yox”. Niyəmi?

Çünki biz əmək müqaviləsinə lağ edirik, haqqında eşitmək belə istəmirik. Tələb edə bilərdik, “heşdat olmaz” deyib buna da dözdük.

Bütün bunları bizə edən isə Avropanın məşhur “Strabag” tikinti şirkəti idi, harada ki, fəhlənin çəkic olmadığı halda yekə daş tapıb götürüb mismar çaldığını görmək mümkün deyil.

Qara günün vərdişi olan 9 saatlıq fiziki işin qabağında 1 saatlıq fasilə haqqına sahib çıxmamağımız yuxarıda işlənmiş olan sözləri – rəhmətlik Çanturiyanın böyüklərdən eşitdiyim sözlərini bir də yadıma saldı: “Övlad, yadında saxla, buranı yalnız azərbaycanlılara ver, burada yalnız onlar baş aça bilər!”

*P.S. Ola bilər oxucularda sual yaransın ki, “iş əlcəyi bir günə necə yırtıla bilər?”. Doğrudur, iş əlcəyinin iki gün dözdüyü günlər də olub, amma bu yazının yazılıb bitdiyi gün artıq zavodda olan itlərdən ikincisi öldü. Acından yox, xəstəlikdən.*

Həmid SADIX

# ƏHALİNİN KASIBLAMASI HESABINA QAZANILAN MİLYARDLAR

***Keçən il qumar oyunlarının dövriyyəsi 5,6 milyard larini aşıb. Dövlət büdcəsinə isə bundan yalnız 332 milyon, yəni dövriyyənin yalnız 5,8%-i düşüb. Rəsmi göstəricilərdən məlum olur ki, vəd verilmiş, amma yerinə yetirilməyən tənzimləmələr şəraitində qumar biznesi qanadlarını geniş açır və əhalinin kasıblaması hesabına daha çox milyardlar qazanır. Məsələn, 2016-cı ildə oyun biznesinin dövriyyəsi təqribən 4 milyard idi. 1 il ərzində milyard yarım artım olub. Son 11 ilin göstəricilərinə əsasən isə, oyun biznesinin dövriyyəsi 187 dəfə artıb.***

Onlayn kazinolar üçün tənzimləmələrin ciddiləşdirilməsinə dair Giorgi Kvirikaşvili hələ baş nazirliyə namizəd olaraq hökumət proqramını tanış edən zaman vəd vermişdi.

Təxminən bir il bundan əvvəl Maliyyə Nazirliyi qanunlayihə işlədi və konkret tənzimləmələr yazdı. Tənzimləmələr Parlamentdə bu məsələyə dair yaradılmış təşəbbüs qrupuna təqdim olundu. Ondan sonra qanunlayihə qanunvericilik orqanında rəfdə durur və gözləyir ki, nə zaman ona diqqət göstəriləcək.

Təəssüf ki, əhalinin keçən il qumar oyunlarında nə qədər məbləğ uduzduğuna dair statistika mövcud deyil, ancaq Gəlirlər Xidmətinin məlumatına görə, oyun biznesi tərəfindən əldə olunan məbləğ 80-dən 100 milyon lariyə qədər dəyişir. Bir ildə isə əhali tərəfindən mərcə qoyulan məbləğ milyardı keçir.

2010-cu ildə maliyyə nazirinin sərəncamına əsasən, gəlir vergisinin hər aylıq bəyannamə forması ödəyənlərin birgə gəliri haqqında məlumat qeyd etməyi nəzərdə tutmur. Müvafiq olaraq oyun biznesinin ümumi gəliri haqqında da məlumat əlçatan deyil. Ancaq işdən məlumatlı olan adamlar deyirlər ki, bu biznesdə qazanc ən azı 50-60%-dir. Bu göstəricilərdən də yaxşı görsənir ki, bu oyunda kim daha çox qazanır – oyun biznesi, yoxsa oyunçu. Əhali ildə təqribən milyardlarla kasıblayır.

Tənzimləmələrə əsasən...

Maliyyə Nazirliyindən deyirlər ki, Gürcüstan Parlamenti qeyri-hökumət sektoru və ekspertlərlə birgə oyun biznesi sahəsində hazırlanan qanunverici dəyişikliklər haqqında aktiv çalışmalar aparır.

Tənzimləmələrə əsasən, qumar və gəlirli oyunlarda iştirak etmək hüququ (loto, binqo və həvəsəndirici oyunlardan başqa) 21 yaşa qədər olan Gürcüstan vətəndaşlarına qadağan olunacaq. Onlayn oyunlar yalnız Gəlirlər Xidməti tərəfindən qeydiyyatdan keçmiş oyunçular üçün əlçatan olacaq. Qara siyahı hazırlanacaq və siyahıya 1 il müddətinə şəxsi və ya ailə üzvlərinin tələbi ilə şəxs daxil edilə bilər.

Onlayn oyunardan əldə olunan məbləğin çıxılması yalnız oyuna icazə verilən şəxsin bank hesabından-kartından çıxarıla bilinəcək və qazanılan məbləğin başqa formada çıxarılması qadağan olunacaq. Maliyyə Nazirliyinin mövqeyi belədir ki, yekun sənəd yüksək standartlarla insan hüquqularını qorusun və yetkinlik yaşına çatmamışların oyun biznesində iştirakını məhdudlaşdırsın.

**Oyun biznesi 1 il ərzində milyard yarım sıçrayış edib!**

**Qumar oyunları ilə bağlı müəssisələrin dövriyyəsi (milyon lari):**

**2006-cı il – 30,1**
**2007-ci il – 64,9**
**2008 -ci il – 70,7**
**2009-cu il – 74,3**
**2010-cu il – 112,7**
**2011-ci il – 366,3**
**2012-ci il – 996**
**2013-cü il – 1.213**
**2014-cü il – 2.032**
**2015-ci il – 3.890**
**2016-cı il – 4.036**
**2017-ci il – 5.649**

Ema TUXİAŞVİLİ

## MİXEİL BATİAŞVİLİ: ANGELA MERKELİN GÜRCÜSTANA SƏFƏRİ ALMANİYA VƏ AVROPA BİRLİYİ İLƏ BİLİK VƏ TƏCRÜBƏNİ BÖLÜŞMƏYƏ YOL AÇACAQ



"Xanım Angela Merkelin səfəri bir daha iki tərəfli münasibətləri irəli aparacaq, yeni imkanlara, həmçinin Almaniya və Avropa Birliyi ilə insan resursunun, bilik və təcrübənin bölüşülməsinə imkan yaradacaq" – təshil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili Almaniya kansleri Angela Merkelin Gürcüstana səfərini belə qiymətləndirib.

Nazirin sözlərinə görə, Frankfurt kitab festivalında Gürcüstanın xüsusi qonaq statusu ilə iştirak etməsi tarixi hadisə olacaq.

"Mənim üçün mədəniyyət, təhsil, elm və idman sahələrində bizim ölkələr arasında formalaşan münasibətlər xüsusən dəyərlidir və bu münasibət yenə də davam edir. Əməkdaşlığın bu prosesində bu il dünyanın intellektual həyatında vacib tədbir olan – Frankfurt kitab festivalında Gürcüstanın xüsusi qonaq statusu ilə iştirak etməsini tarixi hadisə hesab edirik", - deyə Mixeil Batiaşvili vurğulayıb.

## QARDABANİDƏ ÜÇ YENİ TƏCİLİ YARDIM MƏRKƏZİ TİKİLƏCƏK



Qardabani bələdiyyəsində üç yeni Təcili Tibbi Yardım Mərkəzinin regional mərkəzi tikiləcək. Mərkəzlər Qardabani şəhərində, Sarticala və Qamarcvebada tikiləcək. Tikinti ilə bağlı bələdiyyəyə Səhiyyə Nazirliyi müraciət edib.

Üç ərazi vahidliyində tikinti üçün ayrılmış məbləğ 430 min larini təşkil edir. Müvafiq sənədləri Qardabani bələdiyyəsi artıq İnfrastruktur və Regional İnkişaf Nazirliyinə göndərəcək. Bundan sonra tikinti üçün tender elan olunacaq. Tikinti işləri ilin sonuna qədər başa çatmalıdır.

## 2018-Cİ İLDƏ İQTİSADİ CİNAYƏTLƏRİN SAYI ARTIB

Gürcüstanda iqtisadi cinayətlərin sayı artıb. Daxili İşlər Nazirliyinin statistik göstəricilərinə əsasən, 2018-ci ilin yanvar-iyul aylarında ötən ilin analoji dövrü ilə müqayisədə artım 19,6% təşkil edib.

Statistikaya əsasən, istehsal və ya başqa iqtisadi işlərə qarşı hesabat dövründə 213 cinayət qeydiyyata alınıb. Bunun 99-u açılıb. Ötən illə müqayisədə oxşar növ cinayətlərin sayı 4,3% artıb. Ötən il 203 cinayət faktı qeydə alınıb.

Maliyyə kredit sistemində 406 cinayət qeydə alınıb və bu, ötən ilin



analoji dövrü ilə müqayisədə 74 dəfə çoxdur. Ötən il yanvar-iyul aylarında maliyyə kredit sistemində 332 cinayət faktı qeydə alınıb.

Maliyyə işləri sahəsində isə 131 cinayət qeydə alınıb. Bunun 54-ü açılıb. Oxşar növ cinayətin qeydiyyat göstəricisi 42% artıb. 2017-ci ilin yanvar-iyulunda maliyyə işlərində 92 cinayət faktı qeydə alınıb.

Ümumi göstəricilərə gəldikdə isə, qeydə alınmış cinayətlərin statistikası 2018-ci ilin yanvar-iyulunda ötən illə müqayisədə 55,81 faiz artıb. DİN-in statistik göstəricilərinə əsasən, 2018-ci ilin yanvar-iyulunda qeydə alınmış cinayətlərin ümumi sayı 33 054 təşkil edib. Ötən ilin həmin dövründə isə 21 214 cinayət qeydə alınıb.

## MARNEULİ BƏLƏDİYYƏSİNDƏ YENİ NASOS STANSİYASININ TİKİLMƏSİ PLANLAŞDIRILIR



Marneuli bələdiyyəsinin Kürtlər ərazi vahidliyində yeni nasos stansiyası tikiləcək. Marneuli meriyasının məlumatına görə, hal-hazırda Bolnisi, Dmanisi və Marneuli bələdiyyələri tərəfindən 2019-cu ildə həyata keçiriləcək su təchizatı sisteminin qurulması və bərpası üçün lazımi layihə-hesabat sənədlərinin tərtib olunması xidmətinə dair birgə elan edilmiş tender başa çatıb. Təqdim olunmuş tender təkliflərinin dəyərləndirmə-seçilmə prosesi gedir.

Tikinti işləri üçün yerli büdcədən təqribən 5 milyon lari dəyərində məbləğ xərclənəcək.

Qeyd edək ki, nasos stansiyasının tikilməsindən sonra Marneuli bələdiyyəsi Algeti, Əzizkənd, Təzəkənd, Hacıkənd, Baydar, Kəpənəkçi, I Kosalı və Ambarovka əhalisinə yüksək keyfiyyətli içməli su verə biləcək.

## TÜRKİYƏLİ TƏLƏBƏLƏR QARDABANİDƏ OLUBLAR



TİKA-nın "Təcrübə və paylaşım" layihəsində iştirak edən Türkiyənin müxtəlif universitetlərinin tələbələri Gürcüstana səfər ediblər. Səfərdə olan tələbələr 31 avqust tarixində Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının Qardabanidəki mərkəzi ofisini də ziyarət ediblər. Tələbələri Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının mətbuat şöbəsinin sədri Hacı Bəkiroğlu qarşılayıb və təşkilatın fəaliyyəti haqqında onlara məlumat verib.

Onu da qeyd edək ki, müsafirlər Gürcüstan Yaşıl Ay Cəmiyyətinin ofisində və İkinci Kosalı İslam Mədrəsəsində də görüş keçiriblər.

## MARNEULİ VƏ BOLNİSİDƏ SU TƏCHİZATININ MÜASİR İNFRASTRUKTURU QURULACAQ

Marneuli və Bolnisi su təchizatı sistemlərinin tikintisi üçün beynəlxalq tender elan edilib. Bu haqda Regional İnkişaf və İnfrastruktur Nazirliyi məlumat yayıb.

Məlumata əsasən, tender təklifinin qəbul edilmə müddəti 13 avqustda başa çatıb və beynəlxalq tenderdə Asiya İnkişaf Bankına (AİB) üzv olan ölkələr də iştirak edə biləcəklər.

"Tikintini AİB "Urban xidmətlərinin yaxşılaşdırılmasının investisiya proqramı" çərçivəsində maliyyələşdirəcək. Layihəni Gürcüstan Birləşmiş Su Təchizatı Kompaniyası həyata keçirəcək. İşlərin başlanılması cari ilin sonunda planlaşdırılır.

Qeyd edək ki, Marneuli bələdiyyəsində əhaliyə içməli su məhdudlaşdırılmış şəkildə verilir. Geniş miqyaslı işlərin başa çatması nəticəsində yerli sakinlər su təchizatının beynəlxalq standartlarından istifadə edə biləcəklər.

## QARDABANİ MERİYASI MÜASİR TRAKTOR ƏLDƏ EDİB



Qardabani bələdiyyəsi yeni müasir xüsusi texnika əldə edib. Çox funksiyalı traktoru bələdiyyə elektron tender vasitəsilə 183 000 lariyə alıb.

Qardabani meriyasının mətbuat xidmətinin məlumatına əsasən, 2018-ci ilin ingilis istehsalı olan "MST" model ekskavator 10 müxtəlif növ iş yerinə yetirə bilir. Bu isə bələdiyyə ərazisində olan suvarma kanallarının təmizlənməsini, daxili yollara xır tökmək və başqa texniki işlərin yerinə yetirilməsini tam təmin edəcək.

## MARNEULİDƏ MİXEİL CAVAXİŞVİLİYƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB



Avqustun 22-si Mixeil Cavaxişvili yaradıcılığının təbliği məqsədi ilə Marneuli şəhərində M. Cavaxişvilinin abidəsi ətrafında "Cavaxişvili – fəda edilmiş dahi" adlı tədbir keçirilib.

Marneuli meriyasının məlumatına görə, tədbir iştirakçılarının Mixeil Cavaxişvili yaradıcılığının son dövrü ilə tanış olmaq imkanı olub. Açıq səma altında muzey qurulub. Tserakvi kəndində yerləşən M. Cavaxişvili adına muzeyin retrospektivi təqdim olunub. Tserakvi kəndində yazıçının ev-muzeyində qorunan eksponatlar yerləşdirilib. Həmçinin yazıçının həyatına dair real-tarixi hadisələri təsvir edən audio-vizual materiallar sərgilənib.

Tədbirdə yerli və dəvət olunmuş qonaqlar iştirak edib. Onlar Cavaxişvilinin yaradıcılığından parçalar oxuyublar və cəmiyyətə az tanış olan faktlardan və yazıçının bioqrafiyası ilə bağlı söhbət aparıblar.

### MARNEULİ KÜÇƏLƏRİNDƏ POLİETİLEN TULLANTILARI ÜÇÜN YENİ KONTEYNERLƏR YERLƏŞDİRİLİB

Marneuli şəhərinin Rustaveli küçəsində MMC "Marneulinin orqanik tullantıların emalı müəssisəsi"nin təşkilatçılığı ilə polietilen tullantılarını yığmaq üçün yeni qablar yerləşdirilib.

Hazırda Rustaveli küçəsində olan on ədəd köhnə qutu yenisi ilə əvəz olunub. Köhnə qutuları isə şəhərin digər hissələrinə köçürüblər.

Məlumata görə, bələdiyyədə polietilen tullantıları üçün yeni qabların yerləşdirilməsi davam etdiriləcək.

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

31 AVQUST 2018-Cİ İL
№013 (72)

## MAMUKA BAXTADZE ALMANİYA KANSLERİNƏ RƏSM ƏSƏRİ VERİB



Almaniya kansleri Angela Merkel Gürcüstana səfəri zamanı gözlənilməz hədiyyə alıb. Bu barədə A. Merkelin "instagram" səhifəsində məlumat verilib.

Məlumata əsasən, nahar yeməyi zamanı Gürcüstanın baş naziri Mamuka Baxtadze Angela Merkelə 17-ci əsrə aid olan, 1945-ci ildə Drezden muzeyindən itmiş rəsm əsəri bağışlayıb. Natürmort janrında olan, yağlı boya ilə çəkilmiş rəsm əsərinin müəllifi Pietro Françesko Çitta-dinidir.

## AVQUSTUN 29-DAN SEÇKİQABAĞI KAMPANİYA RƏSMİ OLARAQ BAŞLAYIB

Avqustun 29-dan etibarən Gürcüstanda prezident seçkilərinə 60 gün qalmış seçkiqabağı kampaniya rəsmi olaraq başlayıb. Qeyd olunan tarixdən seçkiqabağı dövrdə siyasi partiyalar, namizədlər, dövlət məmurları, yerli özünüidarəetmə, siyasi şəxslər və media üçün təyin edilmiş qaydalar, standartlar və məhdudiyyətlər qüvvəyə minir.

Seçkiqabağı kampaniya başlayan vaxtdan siyasi partiyalar və seçki subyektlərinin namizədləri bərabər hüquqdan istifadə edirlər və bərabər öhdəlikləri var.

Onların seçkiqabağı çağırışlar, bəyanatlar, yazılar, kağızlar, foto materiallar hazırlamaq hüququ var. Onlara təbliğat aparmaqda maneəçilik törətmək və materialı əllərindən almaq, həmçinin təşviqat məqsədli nəqliyyat və xüsusi qurğulara təchiz edilmiş başqa vasitələrin alınması, seçkiqabağı təşviqat məqsədi ilə onlardan istifadə etməyə mane olmaq qadağandır.

Seçkiqabağı kampaniya dövründə yerli özünüidarəetmə orqanları siyasi partiyalara dəstək olmaq və seçki subyektlərinin seçicilərlə görüşünün, ictimai debat və müzakirələrin, toplantı və manifestasiyanın təşkil olunmasına, bu tədbirlərin təhlükəsizliyini təmin etməyə dair öhdəlik götürürlər.

Qeyd edək ki, Gürcüstanda prezident seçkiləri 28 oktyabrda keçiriləcək. Bu, prezidentin birbaşa yolla seçildiyi sonuncu seçkilərdir. MSK-nın göstəricilərinə görə, prezident seçkilərində iştirak etmək üçün 31 nəfər müraciət edib. Siyasi subyektlərin və təşəbbüs qruplarının namizəd təqdim etmək üçün 8 sentyabra qədər vaxtları var.

## QİYMƏTLƏNDİRMƏ VƏ MİLLİ İMTAHANLAR MƏRKƏZİ ABİTURİYENTLƏRƏ XƏBƏRDARLIQ EDİB




Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzi abituriyentlərin diqqətinə bəyanat yayımlayıb. Bəyanata görə, sosial şəbəkədə Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzinin bir çox saxta səhifəsi yaradılıb və onların adından səhv məlumatlar yayımlanır.

"Bildirmək istəyirik ki, bu səhifələrin mərkəzlə ortaq heç bir əlaqəsi yoxdur. Oxşar məzmunlu mesajlara aldanmayın və belə səhifələr tərəfindən yayımlanan məlumatlara etibar etməyin.

Xahiş edirik, yalnız Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzinin rəsmi səhifəsinin məlumatına əsaslanın: www.naec.gov.ge; www.facebook.com/www.naec.ge," – deyə bəyanatda qeyd olunur.

## İLYA DÖVLƏT UNİVERSİTETİNDƏ I KURS TƏLƏBƏLƏRİNİN QEYDİYYATI SENTYABRIN 3-DƏN BAŞLAYACAQ – TƏQDİM OLUNACAQ SƏNƏDLƏRİN SİYAHISI

İlya Dövlət Universitetində bakalavr pilləsinə abituriyentlərin qeydiyyatı 2018-ci ilin 3 sentyabrından 14 sentyabrına qədər sonrakı ünvanlarda aparılacaq:

- Biznes məktəbi – Q. Çoloğaşvili prospekti 3/5, otaq E207, şənbə-bazar günlərindən başqa hər gün, saat 10:00-dan 18:00-a kimi.
- Elm və incəsənət fakültəsi – Cavcavadze prospekti N32, otaq A306, şənbə-bazar günlərindən başqa hər gün, saat 10:00-dan 18:00-a kimi.
- Hüquq məktəbi – Cavcavadze prospekti N32, otaq A409, şənbə-bazar günlərindən başqa hər gün, saat 10:00-dan 18:00-a kimi.
- Təbiətşünaslıq emləri və Mühəndislik fakültəsi – M. Tamaraşvili küçəsi N4, otaq H102 (H korpusa giriş Çoloğaşvili prospekti 3/5, həyətdən) şənbə-bazar günlərindən başqa hər gün, saat 10:00-dan 18:00-a kimi.

Qeydiyyat üçün lazım olan sənədlərin siyahısı:

- Şəxsiyyəti təsdiq edən sənəd və onun surəti (1 nüsxə). Xarici ölkə vətəndaşı olan halda – pasportun (və ya şəxsiyyət vəsiqəsinin) notarial qaydada təsdiqlənmiş tərcüməsi;
- Attestatın notarial qaydada təsdiqlənmiş surəti. Əgər məktəbi xaricdə bitirmişsə – Təshil Dərəcəsinin İnkişafı üzrə Milli Mərkəz tərəfindən verilən sənəd;
- Hərbi xidməti təsdiqləyən sənədin surəti (yalnız oğlanlar üçün)
- 1 fotoşəkil – ¾ ölçüdə və elektron versiyada (CD)

## AZƏRBAYCAN GÜRCÜSTANIN ƏN BÖYÜK İXRAC ÖLKƏSİDİR



2018-ci ilin yanvar-iyul ayında Gürcüstanın ən böyük ixrac ölkəsi Azərbaycan olub. Azərbaycanla ticari dövriyyə 584 milyon dolları aşıb.

Milli Statistika Xidmətinin göstəricilərinə əsasən, 7 ay ərzində 10 ən böyük ixrac ölkəsinin hissəsi Gürcüstanın ümumi ixracında 71,5 faiz təşkil edib. Ən böyük ixrac tərəfdaşları: Azərbaycan (251,8 milyon ABŞ dolları), Rusiya (240,8 ABŞ dolları) və Türkiyə (172,6 milyon ABŞ dolları).

## SENATOR CON MAKKEYN VƏFAT EDİB



Avqustun 25-də ABŞ Senatının ən nüfuzlu üzvlərindən biri, son bir ildə beyin xərçəngi ilə mübarizə aparan Con Makkeyn vəfat edib.

Senator Makkeyn avqustun 24-də apardığı müalicəsini dayandırmağa qərar vermişdi. Con Makkeyn uzun illər ABŞ Konqresində Arizona ştatını təmsil edib. O, Vaşinqtonda Respublikaçılar Partiyasının ən nüfuzlu nümayəndələrindən biri idi.

Senator Makkeyn Vyetnamda döyüşüb, onun təyyarəsi vurulandan sonra beş ildən çox əsirlikdə qalıb. Kapitoliya təpəsində xidmət etdiyi 35 il ərzində altı dəfə Senata seçilib. 2000-ci ildə Respublikaçılar Partiyasından prezidentliyə namizədlərdən biri olub, lakin ilkin seçkilərdə qubernator Corc Buşa uduzub və Buş ABŞ Prezidenti seçilib. 2008-ci ildə Makkeyn Respublikaçılar Partiyasından prezidentliyə əsas namizəd olub, lakin demokrat Barak Obamaya uduzub. Son üç ildə Makkeyn Donald Trampın ən qatı tənqidçilərindən biri olub.

## KRİPTOVALYUTA BAZARI 120 MİLYON DOLLAR AZALIB



Cari ilin iyun ayının başlanğıcında dünya kriptovalyuta bazarının ümumi dəyəri 331 milyard dollar təşkil edirdi. Ancaq bundan sonra bir çox rəqəmsal valyutalar 2018-ci ilin minimumunu qeydə alıb.

Artıq avqust ayının ikinci yarısından rəqəmsal valyutaların kapitallaşdırılması 210-220 milyard dollar çərçivəsindədir. Hələ 1 iyunda 331 milyard idi, bu isə o deməkdir ki, həmin vaxtdan 11 həftə sonra rəqəmsal pul dəyərin 36%-ni itirib və keçən ilin noyabr ayının dəyərinə qayıdıb.

Yayda bitkoinin qiyməti 1000 dollardan 6500 dollara qədər azalıb. Başqa kriptovalyutalar daha da ucuzlaşıb. Ona görə də bitkoinin rəqəmsal valyuta bazarında qiyməti daha da artdı və 53% təşkil edirdi.

Ethereum-un qiyməti son üç ay ərzində praktiki olaraq iki dəfə – 578 dollardan 276 dollara qədər ucuzlaşıb. Hələ yanvar ayında onun tarixi maksimumu 1400 dollar olaraq qeydə alınıb.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər Musaoğlu
Yayım Direktoru: Hacı Bəkiroğlu
Qrafik dizayn: Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.